# Bakının bağ və parkları

## Onlar günü-gündən daha da gözəlləşir...



**Bakı dünyanın ən qədim, zəngin tarixi keçmişə malik şəhərlərindən biridir. Bunu paytaxtın müxtəlif yerlərində yerləşən tarixi abidələr də sübut edir. Bakı haqqında çox kitab yazılıb. Onun tarixi keçmişinə güzgü tutulub. Bakını gözəlləşdirən bir səbəb də coğrafi mövqeyi və relyefidir. Xəzərin sahilində yerləşən Bakı həqiqətən gözəldir. Ta qədimdən bu gözəlliyi artıran, ona yeni rəng verən, fərqləndirən bir məqam da paytaxtdakı bağlar, parklar və xiyabanlardır.**

Yazıçı Manaf Süleymanov Bakı ilə bağlı yazdığı xatirələrində bildirir ki, bu şəhər bitki aləminə görə vaxtilə çox geridə qalmışdı. Buna səbəb də suyun olmaması idi. Bakıda ən köhnə bağ "Qubernator bağı" hesab edilib (sovet dövründə "Pioner bağı"). 1830-cu ildə salınan bu bağ uzun müddət şəhərin yaşıl zonası olub. İndi "Filarmoniya bağı" adlanan bu gözəl məkanda Füzuli yadigarı, məşhur qəzəlxan Əliağa Vahidin heykəli ucaldıldı, "Vahid" poeziya evi yaradıldı.

Bakı şəhər komendantı Lənkəran və İrandan Bakıya gələn bütün gəmilərin sahiblərini, kapitanlarını məcbur edirdi ki, mütləq bir neçə çuval qara torpaq gətirsinlər. Əmri yerinə yetirməyənlər cərimələnirdi. İlk növbədə bağda tut, zeytun,

qarağac, şam, akasiya ağacları əkilmişdi, hətta bir neçə yerdə çiçəklik də salınmışdı. Neft sənayesi inkişaf etdikcə bağın görkəmi də dəyişməyə başlayırdı. Ətrafda hovuzlar, köşklər tikilirdi. O dövrdə əhali bağa həftədə bir dəfə buraxılırmış. Bağın darvazalarının qapısı ancaq yüksək rütbəli məmurların, neft sahibkarlarının, milyonçuların üzünə açıq idi.

Qədim şəhərin ikinci bağı "Parapet" bağı adlanırdı. Bu ərazi XX əsrin əvvəlində kol-kosdan, zibillikdən təmizlənsə də, əslində, "quru bağ" ismindən yaxa qurtara bilməmişdi. Suyun olmaması, müxtəlif atlı dəstələrin ayaqları altında qalması burada yaşıllığın qorunmasına imkan vermirdi. Sovet dönəmində bu yerlər bağa çevrildi. O vaxt "Marks bağı" adlanırdı. İndi bu bağın solğunluğundan əsər-əlamət qalmayıb. "Fəvvarələr bağı" adlanan bu guşədə şəhər əhalisinin mədəni istirahəti üçün hər cür şərait yaradılıb. Bağın dünya standartlarına uyğunlaşdırılması, ətrafda tikilən hər bir binanın, məişət xidməti obyektinin milli memarlıq üslubunda inşası, müasir tələblərə uyğunlaşdırılması hər kəsə zövq verir.

Bakının üçüncü yaşıl guşəsi "Malakan bağı" (sovet dönəmində "9 Yanvar" bağı) adlanırdı. İndi isə "Sonalar gölü" kimi şəhərin ən baxımlı ünvanlarından birinə çevrilib. 1870-ci illərdə burada bağça salmağa çalışsalar da, yeraltı suyun şorluğu, torpağın gildən ibarət olması ağacların inkişafına imkan vermirdi.

Bir məsələ də önəmlidir ki, o dövrün milyonçuları, başda Hacı Zeynalabdin Tağıyev olmaqla, hamısı şəhərin simasını dəyişmək üçün həqiqi mənada vətəndaşlıq mövqeyi göstərirdi. Həm Şərq memarlığı üslubunda binalar tikdirir, həm də atların, dəvələrin belində, faytonlarda münbit torpaq gətizdirərək Bakının yaşıl hüsnünü artırmağa çalışırdılar. Bu iş çox çətinliklə alınırdı. Xatirələrdə oxuyuruq ki, nəinki xəzri, hətta gilavar əsəndə Bakıda tozdan göz açmaq olmurdu.

Bakının üçüncü bağı 1895-ci ildə salınmış "Axşam bazarı" "Veçerna" (indiki S.Vurğun bağı) olub. Buralar əvvəlcə bomboş meydan imiş. Ətrafda taxta köşklər varmış. Axşamtərəfi tünlük olarmış. Alver adətən hava qaralanda gedərmiş. Burada bağın salınması da H.Z.Tağıyevin adı ilə bağlıdır. Hazırda bu bağda yenidənqurma işləri gedir. Tezliklə şəhərin zümrüddonlu ünvanlarından ən möhtəşəminə çevriləcəyinə şübhəmiz yoxdur. Çünki Bakı indi elə sürətlə bağlar, parklar ünvanına çevrilib ki, hər gün bir yaşıl möcüzə ilə üzləşəcəyinə inanırsan.

Bir məsələni də qeyd edək ki, Bakıda olmuş səyyahların, eləcə də yazıçı və şairlərin (əsasən XVIII-XIX əsrlərdə) yazılarında oxuyuruq ki, paytaxtda qədim və tarixi binalar, abidələr diqqət çəksə də, yaşıllığı, demək olar ki, yox dərəcəsində idi. Bakıda ilk ağacların əkilməsi də, bağların salınması da əsasən H.Z.Tağıyevin xidmətləri ilə bağlıdır. 1895-ci ildə Mərdəkanda Bağbanlar məktəbi açdıran bu kişi nəinki Bakının, bütövlükdə Abşeronun, eləcə də Bakıətrafı kəndlərin qumsal ərazilərində, daşlı-çınqıllı çöllərində bağların salınmasına, yaşıllığın artırılmasına çalışıb. Beləliklə, Bakıda ixtisaslı bağbanların yetişməsində unudulmaz xeyriyyəçinin böyük rolu olub.

Nəhayət, dənizkənarı bulvar. Bu məşhur istirahət guşəsinin də əsası 1909-cu ildə qoyulub. Cəmi bir ildən sonra bulvarda əkilmiş ağaclar, bəzək kolları və çiçəklər göz oxşayırdı. Burada bir məsələni də xatırladaq ki, ümummilli lider Heydər Əliyev Azərbaycanda vəzifədə çalışdığı ilk vaxtlardan Bakının quruculuğuna, xüsusilə də yeni parkların, xiyabanların salınmasına daim diqqət yetirirdi. Bu səbəbdən də dənizkənarı bulvar dənizə doğru təxminən iki dəfə genişləndirilib. 1998-ci ildə ümummilli liderin sərəncamına əsasən dənizkənarı bulvara Milli park statusu verilmişdir. İndi Milli park yenidən qurulur. Ölkə Prezidenti İlham Əliyevin xalqın sosial həyat şəraitinin daha da yaxşılaşdırılması və regionların sosial inkişafı ilə bağlı imzaladığı sərəncamlara əsasən, Bakı bağlarının, parklarının yeni inkişaf dövrü başlayıb. Bu gün Milli parkın ərazisində Muğam Mərkəzi tikilir. Mütəxəssislərin verdiyi rəyə görə, bu park dünyada analoqu olmayan gözəl bir bağa çevriləcək.

Şəhərin ən qələbəli, məşhur yerlərindən biri də "Quba meydanı" adlanırdı. Arxiv materiallarından bəlli olur ki, burada çoxlu sayda karvansara, mehmanxana varmış. Şəhərin ən qarışıq və ziddiyyətli meydanlarından biri imiş. Əgər bir tərəfində şıdırğı alış-veriş gedirmişsə, çayxana və aşxanalardan qrammafon və şarmanka səsləri eşidilirmişsə, digər tərəfdə də qoçuların, yolkəsənlərin, oğurluq edənlərin hay-küyü gəlirmiş. İndi bu ərazidə görkəmli Azərbaycan şairi M.Füzulinin heykəli ucalır. Şəhər əhalisi burada şən istirahət edir. "Kömürçü meydanı" adlanan ərazidə də XIX əsrin sonlarında dumandan, tüstüdən göz tutularmış. Sovet dönəmində itgəzdirənlərin, dəvə, xoruz, qoç döyüşdürənlərin fəaliyyətinə son qoyulsa da, bu yerlərin hüsnü müstəqilliyimizi qazandıqdan sonra dəyişdi. Bakını bürümüş yenidənqurma bütün parkların, bağların simasına yeni təravət gətirdi. Şəhəri ürəkaçan mənzərələr bürüdü.

Yaşıllıq o zaman öz hüsnünü daim saxlaya bilir ki, müntəzəm suyu olsun. Hələ qədimdən Bakı əhalisi su sarıdan çox əziyyət çəkirdi. Yenə də bu işin ağırlığını çiyinlərinə götürən ilk xeyirxah H.Z.Tağıyev olub. 1916-1917-ci illərdə Bakıdan 190 kilometr uzaqda yerləşən "Şollar" suyunun paytaxta gətirilməsi Hacı Zeynalabdinin tarixi xidməti idi. Şəhər camaatının o günkü sevincini təsəvvür etmək çətindir. Tədqiqatlarda oxuyuruq ki, həmin gün çoxlu qoyun, dəvə, öküz qurban kəsilib. Məhəllələrdə ehsan süfrələri açılıb. Su fantanları işə düşəndə gözlərinə inanmayan insanlardan neçəsinin hətta sevincdən ürəyi dayanıb. Bu ənənəni ikinci dəfə həyata keçirən məhz Heydər Əliyev oldu. Sovet dönəmində Kürdən Bakıya su kəmərlərinin çəkilməsi prosesinin sevincini bizlər də görmüşük. Ceyranbatan gölünün ətrafında Bakının su təminatı ilə əlaqədar tikilən yeni su anbarının istifadəsi də bu problemləri müəyyən mənada həll etdi. Hazırda dövlət səviyyəsində su problemlərinin tamamilə həll olunması üçün müxtəlif layihələr həyata keçirilir. Yeni su mənbələri aşkar edilir. Xarici şirkətlərlə bağlanan müqavilələr əsasında, ümumiyyətlə, Bakının yaxın zamanlarda su ilə əlaqədar heç bir problemi olmayacaq.

Su həyatdır, ilkin bəhrəsi də yaşıllıqdır. Bu zümrüd aləm təkcə göz oxşamaq üçün deyil, insanların nəfəs almasına, yaşamasına gərək olan vacib şərtlərdən biridir. Dağlardan axıb-gedən şəlalələrin biri də Bakıda keçmiş Çəmbərəkənd ərazisində - Nazirlər Kabinetinin yerləşdiyi binanın qarşısında çağlamaqdadır. İnsan əlinin qüdrəti bu dağlar gözəlini elə baxımlı və gözəl yarada bilib ki, heç təbii şəlalələrdən fərqlənmir. Ətrafdakı çəmənlik, gül-çiçəyin bolluğu adamı bir an çaşdırır. Özünü həqiqətən yaylaqda hiss edirsən.

Nizaminin, C.Cabbarlının, M.F.Axundovun, Ü.Hacıbəyovun, M.Ə.Sabirin heykəlləri yerləşən və adlarını daşıyan bağlar da yenidən abadlaşaraq şəhərin ən gözəl istirahət yerlərindən birinə çevrilib.

Bakının hüsnünü daha da zümrüdləşdirən, onun gözəlliyini artıran bir məqamı da mütləq deməliyik. Ulu öndər Heydər Əliyev həmişə hər kəsin bir ağac əkməsini məsləhət görürdü. Ümummilli lider dəfələrlə öz əlləri ilə Abşeronun neçə yerində salınan yeni meşəliklərdə ağac əkmişdir. Yaşıllığı qorumağı, inkişaf etdirməyi çox zəruri saydığından deyərdi: "Ağac kəsən bilsin ki, mənim qollarımı kəsir". Bu müdrik ifadənin kəsb etdiyi məna çox dərindir. Yəni təkcə ağac əkməklə deyil, gərək onu qoruyasan, qol-qanadının sınmasına, qurumasına, sıradan çıxmasına yol verməyəsən. Bu ənənəni yerinə yetirənlərin fədakarlığı ümid yaradır ki, inamla deyək: Heydər Əliyevin tövsiyələri ləyaqətlə yerinə yetirilməkdədir. Ötən illərdə Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın "Hərəmiz bir ağac əkək" devizi altında başladığı yaşıllaşdırma siyasəti uğurla həyata keçməkdədir. Ötən illərin Bakısı ilə bugünkü paytaxtın park və xiyabanlarını müqayisə etdikdə bu uğurları görməmək olmur. Fotomüxbirimizin Bakının müxtəlif guşələrində lentə aldığı şəkillərdə də şəhər parklarının gözəlliyi dil açır.

● **F.XƏLİLZADƏ**